# Ankarada Azərbaycan Ordusunun Türkiyə modelinə uyğunlaşdırılması istiqamətində görülən işlər müzakirə olunub





Qardaş ölkədə rəsmi səfərdə olan müdafiə nazirinin birinci müavini - Azərbaycan Ordusunun Baş Qərargah rəisi general-polkovnik Kərim Vəliyev Türkiyə Respublikasının banisi Mustafa Kamal Atatürkün dəfn olunduğu məqbərəni - Anıtqəbri ziyarət edib. Azərbaycan nümayəndə heyəti məzar önünə əklil qoyaraq xatirəsini ehtiramla anıb. Baş Qərargah rəisi xatirə kitabına ürək sözlərini yazıb.

Bu barədə Müdafiə Nazirliyinin Mətbuat xidmətindən AZƏRTAC-a məlumat verilib.

Bildirilib ki, sonra general-polkovnik K.Vəliyev türkiyəli həmkarı ilə görüşüb. Əvvəlcə təntənəli qarşılama mərasimi olub. Hər iki ölkənin Baş Qərargah rəisləri fəxri qarovulun önündən keçiblər, Dövlət himnləri səsləndirilib. Protokola uyğun olaraq şərəf kitabı imzalanıb. Rəsmi qarşılanma mərasimindən sonra Baş Qərargah rəislərinin təkbətək və nümayəndə heyətlərinin iştirakı ilə geniş tərkibdə görüşü keçirilib.

Türkiyənin Baş Qərargah rəisi qonaqlara ölkələrimiz arasında strateji müttəfiqliyin dostluq və qardaşlıq münasibətləri üzərində qurulduğunu qeyd edib. Ordu generalı M.Gürak iki qardaş ölkə arasında əməkdaşlığın daha da genişləndirilməsi baxımından qarşılıqlı səfərlərin və belə görüşlərin vacibliyini xüsusi vurğulayıb.

General-polkovnik K.Vəliyev türkiyəli həmkarına dəvətə və göstərilən qonaqpərvərliyə görə minnətdarlığını bildirib. Baş Qərargah rəisi Azərbaycan Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin tapşırığına əsasən, Ordumuzun Türkiyə modelinə uyğunlaşdırılması istiqamətində görülən işlərdən danışıb.

Ölkələrimiz arasında uğurla inkişaf edən əməkdaşlığın qarşılıqlı inam, etimad və dəstəyə əsaslandığı xüsusi qeyd olunub.

Görüşdə Azərbaycan ilə Türkiyə arasında hərbi əməkdaşlığın inkişaf perspektivləri və qarşılıqlı maraq doğuran bir sıra məsələlərə dair ətraflı fikir mübadiləsi aparılıb.

Sonda Azərbaycan nümayəndə heyətinə Türkiyə Silahlı Qüvvələrinin fəaliyyəti barədə brifinq təqdim olunub.

Azərbaycan. - 2023.- 12 sentyabr.- S.3.